

Stanislav Yeji LETS

# ƏSRİN AFORİZM USTASI

Stanislav Yeji LETS – şair, filosof, aforizmin son böyük ustası, satirik, metafora dahisi.

Dünyaya göz açıb onu daşqından bu yana ancaq qanla yuyulan gördü...

İlk nəşri – 1957-də gerçəkləşən "Dağınıq düşüncələr"i ona böyük ad-san qazandırmışdı. Adı "dağınıq" idi, amma əslində özüylə bir ayrı intellektual formasiya yaratmışdı. Həqiqətən, dünyanın ən nizamlı fikirlərini toplamışdı özündə. Hamısı bilgi yüklü, hamısı da bomboz həqiqətlə zəngin... Cild-cild kitablardan alına biləcək qədər dərin hikmət dolu həmin aforizmlər bir də "asanca yadda qalan həqiqətlər" idi... Kitab uzun müddət Qərbdə bestsellerlər siyahısında ilk sırada yer aldı. Ona ən yüksək siyasi tribunalardan belə dəfələrcə istinadlar edildi. Ölümündən az əvvəl yazmışdı: "Mən yaradıcılığımla dünyanı qavramaq istəyirdim". Bu istəyinin çin olmağının nəticəsidir, yəqin, yazdıqlarını oxuduqca səni özündən alıb özünə doğru aparan yolda həyatı anlamağa, varlığı dərkə elə bil addım-addım yaxınlaşırsan.

...Bir dəfə oxucusundan məktub alır: "Sizin aforizmləri anlamaq üçün dərin mütaliəli olmaq gərək". Cavabında yazır: "Əlbəttə!" İkisi də haqlıydı, əlbət. Letsi oxuyub dərk etmək üçün nələri bilmək gərəkmiş, nələri?!

Lets (öz sözləriylə deyəndə)

– azadlıq məfkurəsinə əsir düşmüşdü;

– başqalarının idealını əllərindən alan kəslərin idealının olduğuna şübhə edirdi;

– bir xalqın nəyə güldüyünü desən, sənə həmin xalqın hankı yolda qan axıtmağa hazır olduğunu söyləməyə hazır idi;

– qar uçqununa görə bir qar dənəciyinin belə özünü təqsirli saymadığını bilirdi;

– bilirdi ki, cırtdanlarla ünsiyyət insanın bel sütununu əyir;

– zülmətləri tonqallarla belə yarmağın mümkün olmayacağını da bilirdi;

– bir belə sürü içində bəxtiyar çoban olmağın çətinliyini gözünün önünə almışdı;

– görürdü ki, arxa ayaqları üstə dikələndən bəri insan heç cür tarazlığa nail ola bilmir;

– amma yenə öz xəbərdarlığını edirdi: "Unutmayın – insanın seçimi yoxdur; o, insan olmalıdır!";

– savadsızlığı savadsızların ləğv eləməyindən ehtiyatlanırdı;

– fikrin hakimiyyətin əli yetməyəcək qədər dərin olmağını istəyirdi;

– uzaqlığın hələ həsrətin, kədərin gücüylə ölçüldüyü vaxtların övladıydı;

– həqiqətə baş yendirməzdən əvvəl o həqiqəti idrak etməyin gərəkliliyinə əmin idi;

– özünün bir tək "İnsanın tanrılaşdırılmağı Tanrının insanlaşdırılmağına yol açdı" cümləsinə prometeyçi zehniyyətin dörd yüz illik uzun-uzadı tarixinin xülasəsini ustalıqla sığdırmışdı;

– "boş, mənasız şeylərin insanlar arasında ünsiyyət vasitəsi olmağı kimi, son dərəcə maraqlı hadisənin şahidi"tək görürdü ki, elə bizim mənasızlığımızdır dünyanı mənasız edən;

– zamanın bağlarının qırıldığı və insanlığa xəbərdarlıqlarla dolu XX əsrdə qalmamaq üçün düşünüb tezcənə, bəlkə, zamanın bir başqa cürə hesablanmasının xəyalını qururdu;

– Adəm övladına "yamyamlığın süqutu"nun müjdəsini belə verirdi: "Bax artıq diksinir insan insandan";

– istəmirdi heyvanlar bu adamyeyənlərə etibar eləsin;

– hamının bir-birinin ətini didişdirməyini zövqsüzlüklərinə bağlamışdı;

– insanın insanlararası bu uzaqlığı nə zaman dəf edəcəyi onu daim düşündürürdü;

– onların tənhalıqlarını körpü yerinə divar tikmələrinə bağlayırdı;

– yazırdı ki, ünsiyyət vasitələrinin bir belə sürətlənməyinə baxma, hədəflərimizə daha yavaş çatırıq;

– riyaziyyatla barışmadığını deyirdi;

– bir də deyirdi E=mc2 tənliyini (Eynşteynin nisbilik nəzəriyyəsi) görəndə adam öz çərənçiliyindən xəcalət çəkir;

– çox bulaqdan su içmişdi və əbədiyyən susuz idi;

– özünə o qədər qalib gəlmişdi ki, yenilməzliyindən cana doymuşdu;

– o fikri ölməz sayırdı ki, daim yenidən doğula;

– və əmin idi ki, yalanlarla yaşayan həqiqətlə də yaşar...

Letsdən ötrü "mövcud olmaq deyil, "düşünmək, düşünmək, düşünmək..." vardı... "Fikir, düşüncə" onun dilinin ən işlək sözlərindəndi. Düşünmək ona imkan vermirdi ki, hamı kimi yaşasın...

Həqiqət təşnəli Lets, beləcə, dərin mənalı hikmətamiz fikirlərin bənzərsiz örnəklərini yaratdı. Ekzistensial ruhlu o örnəklərdə ədəbi sənət növü və fəlsəfi məzmunlu bədii şəkil kimi aforizmin büsbütün yeni həyat qazandığını görmək mümkündür. Hər birində həm satira, həm şeiriyyət, həm də bir kinayə var... Az qala hamısı da daima hüzn içində, dərin düşüncəlidir, mənalar sayrışdırır, özü də gur işıq saçaraq... "Mənasız ömür sürməyin – nəfəs dərmədən düşünməyin" dərin izləri var hər birində. Alın yazısı təki bu "özünlə söhbətlər" əsl poeziyadan heç seçilmir. Qısa-qısa anlatdıqları hikmətlərin isə kökü qədimlərə söykənən gerçəklərdir. İnsan oğlunun bütün zamanlarda yolunu işıqlandıran o hikmətlər, necə deyərlər, indi üçün "elə köhnə şeylərdir ki, bəşəriyyət onları artıq unudub..." Bu üzdən indi heç bir dəyərli sözlər toplusu onlarsız keçinə bilmir...

**Cəlal MƏMMƏDOV**

## Söz LETS-indir...

*"Fikir daim yenidən doğulursa – ölməzdir".*

Adamyeyənlərlə eyni masada oturma, bir də gördün, onların yemək qabındasan.

* * *

Adəm oğlu qovulandan sonra cənnət yenə cənnət olaraq qaldı.

* * *

Anteylər hey, özünüzü bataqlıqlardan gözləyin!

* * *

Azadlıq məfkurəsi məni əsir götürdü.

* * *

Bakteriyaların da bizi mikroskopun o biri üzündən izlədiyini unutmayaq.

* * *

Başdaşılarını heykəllərdən ayırd etməyi unutma.

* * *

Başqalarının idealını əlindən alan kəslərin də idealı olurmu?

* * *

Bəzən də ancaq səhnədən düşəndən sonra bilirsən ki, hansı rolu oynayırdın.

* * *

Bəzi milli faciələr fasiləsiz oynanır.

* * *

Bilirəm yəhudilərin zənginliyi haqda əfsanə haradan gəlir – onlar hər şeyin əvəzini ödəyirlər.

* * *

Bir belə sürü içində bəxtiyar çoban olmaq çətindir!

* * *

Bir dövrü ən yaxşı səciyyələndirən – işləklikdən çıxardığı sözlərin siyahısıdır.

* * *

Bir düşüncəyə yetmək üçün çox düşüncəyə ehtiyac var.

* * *

Bir xalq ki ümidsizliyin son həddində yaşayır, vay qonşularının gününə!

* * *

Bir köpəyin kimin yanında quyruq sallamağına vaxtında diqqət elə.

* * *

Bir tək nəhənglərdi rəqibə imkan verər ki, baş qaldıra.

* * *

Bir tək yumor hissi bizi həyatın gülünclükləriylə barışdırmaq gücündədir.

* * *

Bir vaxt vardı, uzaqlığı həsrətin, kədərin gücüylə ölçərdik.

* * *

Bir yalançının yaxşı da yaddaşı olmalıdır.

* * *

Bir yamyamın, yediyi insan adından danışmağa haqqı varmı?

* * *

Bircə düşünsənə! Prometeyin allahlardan oğurladığı odda Cordano Brunonu yandırdılar.

* * *

Bisavadlar məcburdurlar diktə etsinlər.

* * *

Biz boş, mənasız şeylərin insanlar arasında ünsiyyət vasitəsi olmağı kimi son dərəcə maraqlı hadisənin şahidiyik.

* * *

Biz hökumət barədə pis düşündükcə bizimçün o daha betərini düşünür.

* * *

Bizi bir daha və bir daha aldatmağın mümkünlüyü qəlbi nikbinliklə doldurur.

* * *

Bizim mənasızlığımız dünyanı mənasız edir.

* * *

Buna nə sözün, fizik? İnsan sürtüşmələri soyuqluq yaradır.

* * *

Cəhalətin gücü böyükdür; heç nə ona üstün gələmmir.

* * *

Cənnətə necə düşməyi Tanrıdan soruşma. O, ən çətin yolu göstərəcək.

* * *

Ciddi düşünməyə başlayınca görürəm ki, dünya nə qədər gülüncdür.

* * *

Cinayəti nə qədər tez işləsən, cəza müddətin də bir o qədər tez keçər.

* * *
Cırtdanlarla ünsiyyət bel sütununu əyir.
***
Çirkabda eşələnməklə çıxış yolu tapılmaz.
* * *
"Çirkin zəkanın tənqidi"nə kimin
cəsarəti var!..
* * *
Çirkin bir düşüncə ürəyi çirkinləşdirir.
* * *
Çox bulaqdan su içmişəm və əbədiyyən susuzam.
* * *
Dəfnə çələngini qəbul eləmək – elə baş
ölçüsünü bəlli etməkdir.
* * *
Diktator olmadığına inanan diktatorların
vay halına!
* * *
Diqqət yetirmişəm: adamlara onları
düşünməyə məcbur etməyən fikirlər
xoş gəlir.
* * *
Dişsiz tiranları güldürmək qadağandır.
* * *
Dostlarımın çoxu düşmənim, çox düşmənim
də dostum oldu, bir tək laqeydlər mənə sadiq
qaldı.
* * *
Düşmənlərini əfv et. Heç nə onları bunca hiddətləndirə bilməz.
* * *
E = mc2 tənliyini (Nisbilik nəzəriyyəsi) görəndə adam öz çərənçiliyindən xəcalət çəkir.
* * *
Elə həyatıma zəhər qatanlardı, istəyirlər boynuma alım ki, yaşamaq gözəldir.
* * *
Elə insanlar var, məclislərində ağlıma
heç nə gəlmir.
* * *
Elə zəif əsərlər var ki, səhnədən
heç cür düşə bilmir.
* * *
Eyni beyinlə – həm düşünəsən,
həm inanasan?

* * *
Ədalətin yolu üstə dayanmayın –
Femida kordur.
* * *
Əfsanənin həqiqətə çevrilməyi kimin qələbəsidir: idealistin, ya materialistin?
* * *
Əgər sənin düşməninin geriyə yolu yoxdursa,
elə sənin də yoxdur.
* * *
Əlləri iməkləməkdən qurtulan gün İnsan tarazlığını da itirdi.
* * *
Ən çətini – elə insan cildindəki heyvanı sığallayıb oxşamaqdır.
* * *
Ən dəhşətlisi – bulanıq suda axına qarşı
üzməkdir.
* * *
Fikir daima yenidən doğulursa, ölməzdir.
* * *
Fikir hakimiyyətin əli yetməyəcək
qədər dərin olmalıdır.
* * *
Gerçəkçi ol, doğrunu söyləmə.
* * *
Gələcək zamandan yalnız qrammatika əmindir.
* * *
Gəlin bacardıqca qısa yazaq, onsuz da həyatda söz əlindən tərpənmək olmur.
* * *
Yumor hissini itirmiş təlxəklərdən qorxun.
* * *
Gülmək yasaq olan yerdə ağlamağa da
icazə verilmir.
* * *
Gündə səkkiz saat düşünmək hüququ tələb
edirik!
* * *
Hakimiyyət orqanlarını tənqid, öz əksini
tənqidçinin vücudunda tapır.
* * *
Harda mahnı bir ağızdan oxunursa,
orda mətn mənasızdır.
* * *
Heç özünlə savaşma, onsuz da yeniləcəksən.

* * *
Həqiqət olmaqdan qaldığı zaman
həqiqət qalib gəlir.

* * *
Hər dövrdə eyni sözlər, başqa qafalar
yox edilir.

* * *
Hər əsrin öz orta əsrləri var.

* * *
Hər şeydən çətini – öz qanının axınına
qarşı üzməkdir.

* * *
Həyat adamı məcbur eləyir ki, çox şeyləri
öz xoşunla verəsən.

* * *
Hiyləgər kələkbazlar! Cəhənnəmə buraxılmasınlar deyə, şeytanla dostluq eləyirlər.

* * *
Xalqın bir canı, bir qəlbi, bir köksü ola bilər,
amma bir ağlı, bir beyni varsa, zavallıdır.

* * *
Xəritədən ağ ləkələr silindi, yerinə qanlıları
gəldi.

* * *
Xordamı oxumaq istəyirsən? O zaman əvvəlcə
dirijorun çubuğuna göz qoy.

* * *
İbtidai insan, doğrudur, danışmağı bacarmırdı, amma di gəl, heyvanları anlayırdı.

* * *
İkili mübarizədə həmişə pislər qazanır.

* * *
İkimənalı sözlər çox mənalar törədir.

* * *
İlham pərilərinin şeir-sənət xiridarı
olduqlarına şübhəm var.

* * *
İncəsənət yara aldığı yerdə çiçəklənir.

* * *
İnsan axı nə zaman dəf edəcək bu insanlar-
arası uzaqlığı?

* * *
İnsan ol! Meymunlar artıq bunun
öhdəsindən gəliblər.

* * *
İnsanın tanrılaşdırılmağı Tanrının
insanlaşdırılmağına yol açdı.

* * *
İnsanlar nə vaxtsa qardaş olacaqlar və yenə
Habillə Qabildən başlayacaqlar.

* * *
İnsanlar tənhadırlar, ona görə ki, körpü yerinə divarlar tikirlər.

* * *
İnsanlığın dostu olan biri deyirdi:
“Bəni-Adəmdən qaçıram ki, ona zərərim
dəyməsin”.

* * *
Kim ki “biz” deyir, özünü nəzərdə tutmur.

* * *
Kimdən ötrü ki yaşamaqla ölməyin fərqi yoxdur, onun heç dünyaya gəlməyinə dəyməzdi.

* * *
Kimə qarşımı düşünürəm? – Onu mənə yasaqlayanlara qarşı.

* * *
Qandallı əllər alqışlaya bilməz.

* * *
Qapını səndən icazəsiz açanın üzünə heç vaxt
ondan əvvəl qapı açma.

* * *
Qar uçqununa görə bir qar dənəciyi də özün
təqsirli bilmir.

***
Qaranlıq vaxtlarda kölgəyə çəkilmək çətindir.

* * *
Qeyri-müəyyən cavabların qarşısını alım deyə, dolanbac suallar verirəm.

* * *
Mən elə köhnə şeylərdən danışıram ki,
bəşəriyyət onları artıq unudub.

* * *
Mənbəyə çatmaq üçün gərək
axına qarşı üzəsən.

***
Məndən sədaqət gözləməyin: gələn müstəbidi də eynən gedən müstəbid kimi görər
gözüm olmayacaq.

* * *
Mənə bir xalqın nəyə güldüyünü söylə,
sənə onun nə üçün qanını axıtmağa
hazır olduğunu söyləyim.

* * *
Məni ürəyimdə yer verdiklərim yaraladılar.

* * *
Murdarlıqda hər halda nəsə var: milyonlarca milçək yanıla bilməz.

* * *
Nağıllar heç vaxt zövqümü oxşamayıb. Həmişə düşünmüşəm ki, onlar gerçəkdir.

* * *
Namus ləkəsidir ən dəhşətlisi – qan ilə yuyulmağa məcbur edər.

* * *
Nə zaman ki yumor hissimi itirirəm, ondaca mənə filosof deyirlər.

* * *
Nədən çox düşünürəm? – Çox şeyləri düşünməməkçün.

* * *
Nəhənglərin ardınca getmə,
batarsan onların ləpirində!

* * *
Nəsillərin zəif yaddaşı əfsanəyə güc verir.

* * *
Nəyi ki yox eləmək istəyirlər, adını qoyurlar "vaxtı keçibdi".

* * *
Nuh tufanından bu yana dünya bir tək qanla yuyulmaz.

* * *
O yazıçılar ən asan satılır ki, kitablarını kimsə almır.

* * *
Oyanıb ayağa qalxmağın münasibətilə günü salamla!

* * *
Öləndən sonra yaşamaq asan deyil, bəzən buna bütün ömrünü sərf etməli olursan.

* * *
Ömür yolumda o adamlara rast oldum ki, onların başqa yerlərdə də qarşıma çıxmalarına alışmışdım.

* * *
Öz-özümlə danışdığım vaxtlar son sözü heç də həmişə mən demirəm.

* * *
Özünü yalandan azad imişsən kimi göstərə bilməzsən.

* * *
Poeziyada, hətta Vislanın özünü belə su ilə doldurublar.

* * *
Sadəcə inanmaq istəmirsən ki, kitab çapınadək yalan olub.

* * *
Satiriklər öz dillərini fəlsəfə daşında itiləməlidirlər.

* * *
Səni eşitsinlər deyə, bəzən susmağın gərəkdir.

* * *
Siyasi təmsil personajı heyvandırsa, inan, demək, dövran insani deyil.

* * *
Sözə inamımı itirmişdim. Onu mənə senzura qaytardı.

* * *
Sözlərin heç bir anlam ifadə etmədiyi dövrdə ikimənalı olmaq çətindi.

* * *
Sözlərin qiymətdən düşməyi ancaq milli valyuta ilə olur.

* * *
Şairlər uşaqlar kimidir: elə ki yazı masası arxasında otururlar, ayaqları yerdən üzülür.

* * *
Şekspirin vaxtında Mədəniyyət Naziri kim imiş, görən?

* * *
Tanrı hər yerdə qərar tutubdursa, istənilən yol O-na aparmalıdır.

* * *
Tarixdən bütün yalanların silinməyi o demək deyil ki, yerdə ancaq həqiqət qalacaq.
Ola bilər, yerdə, ümumiyyətlə,
heç nə qalmasın.

* * *
Təəssüflər olsun ki, cənnətə ölü arabasında getmək lazım gəlir.

* * *
Unutmayasan, bu Yer kürəsində hər şey düşməyə meyillidir.

* * *
Ürəyinə etibar eləmə – o ki sənin qanını içməyə hazırdır.

* * *
Var olmamalı – yalnız düşünməli,
düşünməli, düşünməli!..